

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 120 (24.007)

*29 iyun 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib. Dövlətimizin başçısı Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub, Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında aparılan işlərlə tanış olub. Dövlətimizin başçısına Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi təqdim edilib. Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub. Dövlətimizin başçısına Kəlbəcər şəhərinin baş planı təqdim edilib. Sonra Prezident İlham Əliyev Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" kiçik su elektrik stansiyasında olub. Burada dövlətimizin başçısına hazırda rayonda 5 yerdə inşa edilən elektrik stansiyaları barədə məlumat verilib. Prezident İlham Əliyev Kəlbəcər rayonunda İstisu sanatoriyasının təməlini qoyub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul edib.

***

Prezident İlham Əliyev həmin gün Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyasında videoformatda çıxış edib.

## Naxçıvan Beynəlxalq Hava Limanında yeni teleskopik trapın və maşın-mexanizmlərin təqdimatı olub





Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası gücləndirilmiş, yerli və beynəlxalq uçuşların təhlükəsiz təşkili təmin olunmuşdur. Xüsusilə aparılan quruculuq işləri, müasir infrastrukturun yaradılması hava limanında xidmətin səviyyəsini xeyli yüksəltmişdir.

İyunun 28-də Naxçıvan Beynəlxalq Hava Limanında yeni teleskopik trapın və maşın-mexanizmlərin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hava limanında aparılan tikinti-quraşdırma işləri ilə maraqlanmış, maşın-mexanizmlərə baxmışdır.

Qeyd olunmuşdur ki, sərnişinlərin qarşılanması və yola salınması zamanı hava limanına gələn şəxslərin rahatlığını təmin etmək üçün aerovağzal kompleksinin Şərq və Qərb terminallarının girişində çardaq tikilmişdir. Həmçinin artan tələbata uyğun olaraq "UBS Airport Systems" şirkəti tərəfindən yeni teleskopik trap quraşdırılmışdır. Teleskopik trap sərnişinlərin təyyarəyə minməsi üçün körpü, təyyarəni elektrik enerjisi ilə qidalandıran və mühərriki hava ilə işəsalma qurğusundan ibarətdir. Yığılmış vəziyyətdə uzunluğu 16,5, tam açılmış vəziyyətdə isə 37,5 metr olan teleskopik trap üçün 48 metrlik keçid yolu inşa edilmişdir. Keçid yolu 6 müxtəlif ölçüdə soyuducu və qızdırıcı sistem, 5 kamera, 8 yanğın detektoru və səsverici avadanlıqla təchiz edilmişdir.

Hava limanına 1 ədəd elektrobus, 2 baqajçəkmə traktoru və 2 baqajyükləyici avtokonveyer alınmışdır. 22-si oturacaq, 36-sı ayaqüstü olmaqla, 58 sərnişin yerlik elektrobusun sürət həddi saatda 70 kilometr, dolu batareya ilə gedilən məsafəsi 160-210 kilometrdir. Baqajçəkmə traktorlarının hər birinin yükçəkmə qabiliyyəti 4 ton, baqajyükləyici avtokonveyerin yükgötürmə qabiliyyəti isə 2 tondur.

Bildirilmişdir ki, teleskopik trapı gərginliklə təmin etmək üçün yeni transformator binası tikilmiş, binada transformator, requlyator və generator, 4 video-nəzarət, 4 yanğın detektoru, kondisioner quraşdırılmışdır. Hava limanında elektriklə işləyən avtomobilləri enerji ilə təmin edən cihaz quraşdırılmışdır ki, bu da digər avtomobillərə də xidmət göstərəcəkdir.



Görülən işlərlə tanışlıqdan sonra kollektivlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ölkə Prezidentinin tapşırığı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə 2021-ci il iyunun 23-də Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyinə verilmişdir. Bu müddətdə Naxçıvan Beynəlxalq Hava Limanında müxtəlif işlər həyata keçirilmişdir. İstifadəyə verilən üçüncü teleskopik trap və yeni alınmış texnikalar da bu tədbirlərin davamıdır. Hava limanında bu işlərin görülməsi vacib idi. 2022-ci ilin ötən dövründə Naxçıvan Beynəlxalq Hava Limanında yerli hava xətti üzrə 175 minə yaxın, beynəlxalq hava xətti üzrə isə 3500-ə yaxın sərnişin daşınmışdır. Sərnişin və təyyarələrin sayının artması xidmətin də müasir tələblərə uyğun qurulmasını zəruri edir. Muxtar respublikada hava nəqliyyatı sahəsində sərnişin sıxlığı iyun-avqust ayları arasında daha çox olur. Ona görə də Naxçıvan Beynəlxalq Hava Limanının öz vəsaiti hesabına qısa müddətdə maşın-mexanizmlər alındı, tikinti işləri aparılaraq sərnişinlərin rahatlığı təmin olundu.

Ali Məclisin Sədri bu işləri həyata keçirənlərə təşəkkürünü bildirmiş, kollektivə təbriklərini çatdırmış, qurulanların qorunması, sərnişinlərə nümunəvi xidmət göstərilməsi barədə tapşırıqlar vermişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli kollektiv adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmiş, bundan sonra da hava nəqliyyatının inkişafı sahəsində səylə çalışacaqlarına söz vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# 10 ailə özünüməşğulluq proqramına cəlb olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada aktiv məşğulluq tədbirlərinin icrası davam etdirilir. Bu ildən etibarən sosial tərəfdaş qismində özəl kommersiya müəssisələrinin iştirakı isə özünüməşğulluq proqramının əhatə dairəsini genişləndirib.

İyunun 28-də “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 10 ailə özünüməşğulluq proqramına cəlb olunub. Həmin ailələrdən birinə 10 arı ailəsi, beşinə 2 baş iribuynuzlu, dördünə isə 20 baş xırdabuynuzlu mal-qara verilib. Özünüməşğulluğu təmin edilmiş ailələrin üzvlərindən 4-ü müharibə veteranı, 5-i sağlamlıq imkanları məhdud, 2-si isə şəhid ailəsi statusunda olan şəxslərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək deyib ki, muxtar respublika iqtisadiyyatının hərtərəfli inkişafı bütün sahələri əhatə edir. Yaradılmış şərait, həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna öz təsirini göstərir, yeni sosial layihələr uğurla icra olunur. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın mühüm sahibkarlıq subyektlərindən olan “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” Məhdud Məsuliyyətli Cəmiyyəti də əhalinin məşğulluğunun təmin olunmasında yaxından iştirak edir, bu istiqamətdə həyata keçirilən sosial layihələrə öz töhfəsini verir.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Diqqətə çatdırılıb ki, muxtar respublikada özünüməşğulluq proqramına cəlb edilmiş ailələrdən əksəriyyəti verilmiş aktivlərdən səmərəli şəkildə istifadə edib və fərdi ailə təsərrüfatlarını yaradıblar. Bu günədək, ümumilikdə, 4983 nəfər ailə üzvü olan 1076 ailənin özünüməşğulluğu təmin olunub, bu ailələrdən 1028-nə kənd təsərrüfatı, 48 ailəyə isə istehsal sahələri üzrə aktivlər verilib.

Sonra yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Özünüməşğulluq proqramına cəlb olunanlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**“Şərq qapısı”**

# Naxçıvanda 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü qeyd edilib



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 104 illiyi müxtəlif tədbirlərlə qeyd olunub. Bu münasibətlə iyunun 26-da Naxçıvan şəhərində Naxçıvan Qarnizonu Hərbi Orkestrinin ifasında konsert proqramı təşkil edilib. Heydər Əliyev Muzeyinin qarşısında konsert proqramı ilə çıxış edən orkestr marşlardan və Vətənə həsr olunmuş mahnılardan ibarət maraqlı konsert proqramı təqdim edilib. Naxçıvan Qarnizonu Hərbi Orkestri uşaq və gənclərə vətənpərvərlik duyğuları aşılayan Yusif Axundzadənin “Azərbaycan”, Cavanşir İsgəndərovun “Xüsusi təyinatlı qüvvələr”, Abbas Quliyevin “Təntənəli parad”, Şahin Musaoğlunun “And içirik”, Zəfər Abbasovun “Əmrindəyəm Komandanım”, “Heyratı” və digər bu kimi vətənpərvər və mübariz ruhda ifa etdiyi marşlarla hərbi qulluqçular və onların ailə üzvlərinə xoş ovqat bəxş edib, tamaşaçılarda əsl bayram əhvali-ruhiyyəsi yaradıb. Bir saatdan çox davam edən konsert proqramı izləyicilər tərəfindən böyük coşqu ilə qarşılanıb.

Qeyd edək ki, Silahlı Qüvvələr Günü muxtar respublikamızın rayonlarında da əsl bayram təntənəsi, yüksək əhvali-ruhiyyə ilə qeyd olunub.

Şərur şəhərinin mərkəzində yerləşən Heydər Parkında Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbirdə əvvəlcə ordumuzun şanlı tarixindən, onun yaradılmasından danışılıb. Vurğulanıb ki, bu gün müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən tarixiləşdirilib, 44 günlük Vətən müharibəsində Azərbaycanın Zəfər tarixi yazılıb, Azərbaycan əsgərinin döyüş ruhu, peşəkarlığı və şücaəti bütün dünyanı heyrətləndirib.



Sonra rayon Mədəniyyət İdarəsinin musiqi və teatr kollektivinin hazırladığı maraqlı konsert proqramı təqdim olunub. Bayram tədbiri xoş ovqatla davam edib, tədbir iştirakçıları üçün yüksək səviyyədə iaşə xidməti də təşkil olunub.

Culfa rayonunun Culfa şəhərində və Ləkətağ kəndində yerləşən “N” hərbi hissələrdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 104 illiyi münasibətilə konsert proqramı təşkil olunub. Culfa Rayon Mədəniyyət Sarayının “Çeşmə” İnstrumental Ansamblının ifasında Vətənə həsr olunmuş mahnılardan ibarət maraqlı konsert proqramı hərbi qulluqçulara xoş ovqat bəxş edib.

**Xəbərlər şöbəsi**

# Vətən müharibəsi iştirakçılarına medallar verilib



Əlahiddə Ümumqoşun Orduda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2021-ci il 24 iyun tarixli sərəncamları ilə təltif edilmiş Vətən müharibəsi iştirakçılarına medallar təqdim edilib. Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Vətən müharibəsi iştirakçıları ilə görüşən Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev müstəqil dövlətimizin banisi lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətindən və 44 günlük müharibə ilə qazanılan Zəfərdən danışıb, Silahlı Qüvvələrin yaranmasının 104-cü ildönümü münasibətilə şəxsi heyəti təbrik edib.

Bildirilib ki, Azərbaycan Ordusunun qurulması, inkişafı, möhkəmlənməsi ümummilli lider Heydər Əliyevin yorulmaz fəaliyyətinin, dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Ulu öndərin siyasətini uğurla davam və inkişaf etdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə bu gün ordumuz döyüş və mənəvi-psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə edərək gündən-günə daha da güclənir və qüdrətlənir. Qeyd olunub ki, otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrə qədəm qoyub. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı və ən əsası Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq.

General-polkovnik Kərəm Mustafayev bildirib ki, Azərbaycan Ordusunun tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində daim döyüş qabiliyyətinə, müasir silah və texnikalara, yüksək döyüş hazırlığına malikdir. Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Vətən müharibəsində göstərdikləri rəşadətə görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamları ilə medallarla təltif olunublar.

Tədbirdə çıxış edən Vətən müharibəsi iştirakçıları baş leytenant Əli Aslanzadə və leytenant Toğrul Lətifzadə döyüşlər barədə təəssüratlarını bölüşüb, müharibə iştirakçılarına və şəhid ailələrinə göstərilən qayğıdan danışıblar.

Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 24 iyun tarixli sərəncamları ilə təltif edilmiş İkinci Qarabağ müharibəsi iştirakçılarına Füzulinin, Kəlbəcərin, Laçının, Qubadlının, Suqovuşanın, Şuşanın və Xocavəndin azad olunmasına görə medalları təqdim edilib.

Şəxsi heyətin təntənəli keçidi ilə təltifetmə mərasimi başa çatıb.

**Kənan CƏLİLOV**

# Elimin qələbə sevincli, qeyrət, hünərvərlik və şücaət dolu bayram növrağı

## *Batabat yaylağında təşkil edilən Silahlı Qüvvələr Günü tədbiri möhtəşəm xalq-ordu birliyinin ən gözəl nümunəsi idi*

***Xalqımızın lap qədim zamanlardan üzübəri tarixi taleyinə yazılmış çətinliklər, yadelli düşmənlərə qarşı apardığı mübarizə daim yaddaşımızda kök salmış şərəf və qeyrət simvolu kimi xatırlanır. Yurdunun ərazi bütövlüyünü qoruyub saxlayan, milli-mənəvi dəyərlərini, tarixini, incəsənətini minilliklərin gərdişindən, zamanın süzgəcindən keçirərək dünənindən bu gününə, keçmişindən gələcəyinə aparan bir xalq mübariz və qəhrəman xalqdır. Azərbaycan xalqı kimi... Hər səfərində tarixin daşlaşmış hafizəsinə nəzər saldıqda köksündə məskən tutmuş şeirləri, qoşmaları, hər misrasında xalq-ordu birliyi canlandırılan kəlmələri dinlədikcə bir daha keçmişimizlə fəxr edir, gələcəyimizə daha ümidlə baxırıq. Çox qısa zaman müddətində azadlıq, müstəqillik əldə etməyimizə baxmayaraq, keçdiyimiz mübarizə yolu bu gün “mənim tarixim var”, – deyən hər bir xalqa örnəkdir, nümunədir. Təbii ki, uzun illər bu mübarizələrin cəngində tapdalanan, lakin heç zaman əyilib sınmayan bir dövlətin də toy-bayram etməyə, ordusu və milləti ilə öyünməyə mənəvi haqqı çatır, ələlxüsus da ki, Azərbaycan xalqının...***

Artıq iki ildir ki, Azərbaycan Ordusu 26 İyun – Silahlı Qüvvələr Gününün yaranması tarixini böyük təntənə, qürur və coşqu ilə qeyd edir. 44 günlük şanlı Qarabağ Zəfərində əldə etdiyimiz və hərb tariximizə qızıl hərflərlə yazılmış böyük uğur sanki əlamətdar tarixlərimizə də fərqli bir ab-hava qazandırıb. Muxtar diyarımızın cənnətməkan ünvanında, başdan-başa təbiət muzeyi olan Batabat yaylağında təşkil edilən 26 İyun – Silahlı Qüvvələr Gününə həsr edilmiş konsert proqramı da belə günlərdən biri kimi yaddaşlarda qaldı. Şahbuz Rayon Mədəniyyət Şöbəsinin “Batabat” İnstrumental Ansamblının və rayon Mədəniyyət Şöbəsinin tabeliyində olan mədəniyyət evləri və klublarının tərkibindəki folklor qrup və kollektivlərinin bir-birindən maraqlı bədii kompozisiyaları, milli-mənəvi dəyərlərimizi özündə yaşadan maraqlı rəqs ifaları, gənclərimizin vətənpərvərlik janrında şeir qiraətləri coşqu ilə qarşılanıb. Yüksək səviyyədə təşkil olunmuş iaşə xidməti, Şahbuz Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin təşkil etdiyi fəal gənclərin əl işlərindən ibarət rəsm sərgisi, şahmat oyunları, idman tamaşaları, o cümlədən gənclərin STEAM təlimi çərçivəsində hazırladıqları robotlar, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil edilən istedadlı xanımlarımızın əl işlərindən ibarət səyyar sərgi-satış, ailə təsərrüfatçılarının hazırladıqları təbii məhsullar və milli mətbəximizin ləziz təamları tədbir iştirakçılarında böyük maraq yaradıb.





Məlumat üçün qeyd edək ki, Şahbuz Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunan bayram tədbiri çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən keçirilən sərgi-satışda, ümumilikdə, 47 qadının 2000-dən artıq əl işi nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev diqqətə çatdırıb ki, ümummilli liderin hakimiyyətə qayıdışından sonra ordumuzda və xalqımızda qələbəyə qəti inam yarandı. Dahi şəxsiyyətin böyük qayğısı ilə hərbi hissələr tam komplektləşdirildi. Ordumuz ulu öndər Heydər Əliyevin əmri ilə uğurlu hücum əməliyyatları keçirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Ordu quruculuğu işinə böyük önəm verən ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən 26 iyun Silahlı Qüvvələr Günü elan olundu. İcra başçısı bu gün münasibətilə Azərbaycan Ordusunu, başda şəhid ailələri və qazilərimiz olmaqla bütün soydaşlarımızı təbrik edib.

Qələbə sevincli, qeyrət, hünərvərlik və şücaət dolu bayramın qazandırdığı bu fürsətdən istifadə edib bir neçə iştirakçı ilə həmsöhbət olduq. İlk müsahiblərimiz Vətən müharibəsində övladlarını qurban verən şəhid valideynləri oldu. Biri öz analıq qəlbinin ülviyyətindən minlərlə soydaşımıza sevgi-məhəbbət payı verən şəhid İlkin Muradlının anası Həcər ana, digəri isə “min oğlum olsa, yenə də Vətənə fəda edərəm”, – deyən şəhid Mərhəmət Həmzəyevin atası Rizvan atadır. Hər iki valideynin sinəsində daşıdığı övlad ağrı-acısı eyni olsa da, xalqımızı üçrəngli bayrağın kölgəsində birləşdirən bu bayram onların da üzünə təbəssüm qondurub.

*Ardı 3-cü səhifədə*

“Vətənin dar günündə, xalqın köməyə ehtiyacı olanda onun qədir-qiymət bilən övladları imdadına çatar”, – deyə ***Həcər ana*** söhbətə başladı:

– Artıq iki ildir ki, İlkin bizdən cismən ayrılıb, əbədi bir yurda, cənnətə qovuşub. Onsuz keçən hər günüm, hər saatım, mənim üçün əzabdır. Övlad elə bir nemətdir ki, onun yeri heç nə ilə dolmur. Mən bütün şəhid valideynlərinə bir daha başsağlığı diləyirəm. İllər keçsə də, əsrlər, qərinələr bir-birini əvəzləsə də, əminəm ki, xalqımızın qeyrətli oğulları, qızları heç zaman şəhid qardaşlarını unutmayacaqlar, unutdurmayacaqlar. Hər birimiz yaxşı bilirik ki, Vətən, torpaq, azadlıq heç zaman asan əldə olunmur. İlkinin timsalında minlərlə Azərbaycan övladı xalqımızı illərdir, gözlədiyi vüsalına – Qarabağına qovuşdurub. Hər gün televiziyadan cənab Prezidentimizin o müqəddəs torpaqlara, işğaldan azad olunmuş yurdumuza edilən səfərlərini gördükcə mənim də qəlbim təsəlli tapır. Sevinirəm ona görə ki, Vətənimizdən illərdir, qoparılan o torpaqlar artıq öz sahiblərinə qaytarılıb. Bu gün 26 İyun Silahlı Qüvvələr Günüdür, bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm. Elimizə, yurdumuza sülh və əmin-amanlıq, birlik, bərabərlik arzu edirəm.

Xoş ovqatlı bayram tədbirində iştirak edən qonaqlar arasında “Azərbaycanın uğurlu gələcəyi gənclərimizin əlindədir”, – deyən şəhid Mərhəmət Həmzəyevin atası ***Rizvan*** ata da var idi. 90-cı illərdə xalqımızın çəkdiyi ağrılı-acılı günləri xatırlayaraq qeyd etdi ki, ötən əsrin 80-ci illərinin sonlarından etibarən ölkəmiz çətin günlərlə üz-üzə qalmışdı. Maddi və mənəvi çatışmazlıqların yaratdığı çətinliklər bəs etmirmiş kimi, bir yandan da mənfur düşmənlərimizin torpaqlarımıza qarşı qaldırdıqları saxta iddialar, sözün əsl mənasında, sabaha olan ümidləri də puç etmişdi. Lakin tarix də sübut edib ki, çətin şərait hər zaman böyük şəxsiyyətləri xalqın içərisindən seçərək, necə deyərlər, gün üzünə çıxarır. Ümummilli liderimiz Heydər Əliyev də Uca Yaradanın millətimizə verdiyi böyük ərməğan idi. Onun əsasını qoyduğu uğurlu siyasətin sayəsində bu gün ölkəmiz çiçəklənir, günü-gündən inkişaf edir. 44 günlük Qarabağ savaşımızda əldə etdiyimiz tarixi müvəffəqiyyət də müstəqillik əldə etdikdən sonra qazandığımız nailiyyətlərin davamıdır. Bu gün Azərbaycan xalqı, hər birimiz bu yenilməz ordunun təntənəli bayram sevincini qeyd edirik. Mən Vətənin istiqlalı naminə canını fəda edən minlərlə Vətən övladından birinin atası kimi bütün Azərbaycan xalqını təbrik edir, şəhidlərimizin ruhuna rəhmət, qazi balalarımıza isə uzun ömür, cansağlığı arzu edirəm.



Muxtar diyarımızın əlverişli mühiti, təbiəti, zəngin və rəngarəng təbii coğrafi şəraiti qəlbində yaradıcılıq eşqi daşıyan yazıçılarımızı, jurnalistlərimizi də bu gözəl məkanların hüsnünə tamaşa etməyə çağırır. Azərbaycan Respublikasının Əməkdar jurnalisti, yazıçı-publisist ***Flora Xəlilzadə*** də sevilib-seçilən qonaqlardan biri kimi öz zəngin təəssüratlarını bizimlə bölüşdü:



– Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən qədim diyarlarından biri, qədimlik və müasirliyin vəhdət təşkil etdiyi bir məkandır. Bu gün artıq Naxçıvanın gözəlliyi və inkişafı onu ən müasir Avropa şəhərləri ilə müqayisə ediləcək bir səviyyəyə çatdırıb. Bu diyarın kəndləri o qədər abaddır, gözəldir, təmizdir ki, mən bu mənzərələri gördükcə hədsiz sevinirəm, fəxr edir, qürurlanıram. Bu torpaq Azərbaycan siyasətinə görün necə ziyalılar, alimlər, dahi şəxsiyyətlər bəxş edib. Bu gün biz bu gözəl ünvanda, əlvan təbiətli Batabat yaylağında ordumuzun yaranması gününü qeyd edirik. Bu məqamda bir həqiqəti sizlərin diqqətinə çatdırım ki, mən o əzəmətli dağların ardındakı qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndində dünyaya göz açmışam. Bütün qəlbimlə inanıram və ümid edirəm ki, gələcək səfərimdə Naxçıvana gələrkən öz doğma kəndimi də ziyarət edə biləcəyəm. Siz naxçıvanlılar çox xoşbəxtsiniz. Naxçıvanda olduğum müddətdə məndən hal-əhvalımı soruşanlara ürəkdolusu deyirəm ki, bəxtəvərəm, xoşbəxtəm, ona görə ki, mən Naxçıvandayam. Qəzetiniz vasitəsilə əziz naxçıvanlılara bir daha sevgi və ehtiramımı çatdırır, səmimiyyət, qonaqpərvərlik üçün təşəkkür edirəm.

Vətəni qorumaq, onun keşiyində dayanmaq, bir elin təhlükəsizliyini təmin etmək insanın çata biləcəyi ən yüksək mənəvi məqam və şərəf zirvəsidir. Bu məsuliyyəti çiyinlərində daşımaqla insan həm də əbədiyaşarlıq haqqını əldə edir. Elə həmin sevilib-seçilən insanlardandır, 44 günlük haqq mübarizəmizdə bir an belə düşünmədən canını düşmən gülləsinə sipər edən qeyrətli qazi qardaşlarımız. Onlardan bir neçəsi ilə həmsöhbət olub bayram təbriklərini və təəssüratlarını öyrəndik.

Döyüş yolu Füzuli, Cəbrayıl və Qubadlı şəhərlərinin işğaldan azad olunması istiqamətindən keçən qazimiz ***Mirkənan Kərimov*** dedi: – Bu gün şanlı Azərbaycan Ordusunun günüdür, sarsılmaz iradəsi, gücü, qüvvəti, rəşadəti ilə zəfər nəğməsi yazan bir ordunun günü. Bu möhtəşəm bayram münasibətilə mən də bütün qazi yoldaşlarım adından soydaşlarımızı təbrik edirəm, ordumuza bundan sonra da üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırmasını arzu edirəm. Artıq bir neçə saatdır ki, buradayıq. Bir-birindən maraqlı və rəngarəng rəqslər, ifalar, gənclərimizin səsləndirdiyi şeirlər insanda xoş əhvali-ruhiyyə yaradır. Bura ilk gəldiyimiz andan etibarən bütün tədbir iştirakçıları ətrafımızda cəm oldu, xatirə fotoları çəkdirdilər. Xalqımız tərəfindən sevilmək, onların bizlərə, şəhid valideynlərinə göstərdiyi diqqət insanı həm kövrəldir, həm də sevindirir. Artıq iki ildir ki, biz qazi kimi şərəfli bir ad daşıyırıq. Bu iki il müddətində dövlətimizin bizlərə göstərdiyi diqqət həmişə təqdirəlayiq olub, orden və medallarla təltif edilmişik. Bununla yanaşı, muxtar respublika rəhbəri tərəfindən biz qazilərə və şəhid ailələrinə mənzil və avtomobillər təqdim olunub. Belə bir dövlətin vətəndaşı olmaq insanı qürurlandırır. Bu gün Azərbaycan Ordusu öz gücü ilə dünya hərb tarixində özünəməxsus yer qazanıb. Bunu 44 günlük Vətən müharibəsində bir daha gördük. İstər müharibə dövründə, istərsə də müharibədən sonra xalqımızın sərgilədiyi birlik və bərabərlik bundan sonra hələ neçə nəsillərin qürur mənbəyi olacaq. Yaşasın Azərbaycan Ordusu və xalqımız!



Digər qazimiz ***Abbasəli Tarverdiyev*** də öz fikirlərini bizimlə bölüşdü:

– İlk əvvəl bu gözəl tədbirin təşkil edilməsində əməyi keçən hər kəsə, xüsusilə də Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Vətən müharibəsi yekunlaşdığı bir gündən dövlətimiz bizə böyük diqqət və qayğı göstərib, nəzərini heç zaman üzərimizdən çəkməyib. Mənim döyüş yolum da bir neçə strateji əhəmiyyətli yüksəkliklərin, işğal altında olan rayonların azad edilməsindən keçib. Həmin müddət ərzində bu gün olduğu kimi, xalqımızın bizə göstərdiyi yüksək mənəviyyatın, dəyərin şahidi olmuşam. Yüzlərlə, minlərlə silah yoldaşlarımızı şəhid vermişik, qazilərimiz olub. Amma heç zaman Böyük Qələbəyə olan inamımız sarsılmayıb, əqidəmiz sınmayıb. Həmişə inanmışıq ki, Vətənin azadlığı, müstəqilliyi bizim əlimizdədir, biz bu torpağı qorumalıyıq. Çünki bu torpaq əcdadlarımızın bizə verdiyi əmanətdir. Çalışdıq ki, bizə tapşırılan bu şərəfli işi layiqincə yerinə yetirək, qazi adını qazansaq da, geridə gözüyaşlı analar, bacılar, hətta övladlar qoysaq da, Vətən torpağından düşmənə bir zərrə belə olsun, pay etməyək. Şükürlər olsun ki, bu gün Vətən torpağı azaddır. O mənfur düşmənin ayaqları yurdumuzdan birdəfəlik kəsilib artıq. Bir daha gözün aydın olsun, Azərbaycan Ordusu, bayramın mübarək olsun!

Bayram ab-havası təbii olaraq yurdumuza səyahət edən qonaqların da diqqətini cəlb edib. İştirakçılar arasında qardaş Türkiyə Respublikasının vətəndaşı ***Zəfər Yalçın***la da həmsöhbət olduq. Müsahibim deyir ki, Azərbaycan və onun digər şəhərləri haqqında çox eşitmişəm. Naxçıvana etdiyim bu ilk səfərimdə eşitdiyimdən daha da artıq gözəlliklərin şahidi oldum. Artıq iki həftəyə yaxındır ki, buradayam. Qədim türk diyarı olan Naxçıvanın bir çox gəzməli-görməli yerlərinə ekskursiyalar etmişəm. Bu gün də Batabat yaylağındayam. Çox xoşbəxtəm ki, qardaşlarımızın belə bir əlamətdar gündə keçirdiyi sevincə mən də şərik ola bildim. “Vətən” məfhumu türklər üçün namus və qeyrət deməkdir. İştirakçılar arasında qazilər və şəhid valideynlərinin də olması bu dediklərimizi bir daha sübut edir. Mən bütün türk eli adından qardaş Azərbaycanın Silahlı Qüvvələr Gününü təbrik edirəm. Yaşasın Azərbaycan və Türkiyə qardaşlığı!

*Müsahiblərimizin hər birinin səsləndirdiyi bu yüksək fikirlərdə böyük həqiqətlər var, xalq-ordu birliyinin ən gözəl nümunəsi, “Dəmir yumruğun” əzəməti, Azərbaycan Ordusunun rəşadəti, “təki Vətən sağ olsun!” – deyən şəhid qardaşlarımızın al bayraq sevdası, torpaq həsrəti, el qeyrəti var. Azadlığın, hürriyyətin daim olsun, Azərbaycan Ordusu!*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Məktəblilərin *“STEAM Yay məktəbi”*nə start verilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə keçirilən, Ağbulaq İstirahət Mərkəzində təşkil olunan növbəti “STEAM Yay məktəbi”nin açılış tədbiri olub. Tədbirdə təhsil naziri Rəhman Məmmədov bildirib ki, STEAM təhsilinin əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2021-ci il 7 iyun tarixdə “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalanıb. Sərəncama uyğun olaraq muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqinə başlanılıb. Sərəncamdan sonra qısa müddət ərzində 106 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunub. Hazırda STEAM-lə bağlı 4-cü layihə icra olunur. Əlavə olaraq 50 ümumtəhsil məktəbində də kabinələrin yaradılması istiqamətində işlər davam etdirilir. Hazırda Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzi də qurulur.

Diqqətə çatdırılıb ki, cari tədris ilində Naxçıvanda ilk dəfə olaraq “STEAM təhsili: reallıqlar və perspektivlər” beynəlxalq elmi-praktik konfrans, şagird və tələbələrin iştirakı ilə “STEAM Təhsil Festivalı” keçirildi. STEAM təhsilinin muxtar respublikada qısa müddətdə tətbiq edilməsinə baxmayaraq, festivalda 640 şagird 204 layihə ilə iştirak etdi. Bunlar isə muxtar respublikada STEAM təhsilinin uğurlu tətbiqinin əsas göstəriciləridir.

Nazir qeyd edib ki, şagirdlərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə 28-30 iyun 2022-ci il tarixlərdə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün “STEAM Yay məktəbi”nə start verilir. Proqram üzrə şagirdlər STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları kimi istiqamətlərdə məlumatlarla tanış olacaqlar. Proqram əsasında şagirdlərə micro:bit vasitəsilə kodlama, müxtəlif mühəndis-dizayn həllərinin prototipləşdirilməsi və digər bu kimi istiqamətlərdə praktik biliklər veriləcək və təlimi uğurla başa vuran şagirdlər Təhsil Nazirliyi tərəfindən sertifikatla təmin ediləcəklər.

Təhsil naziri təhsildə innovasiyaların tətbiqi üçün yaratdığı şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

STEAM üzrə təlimçi-müəllim Ceyran Məmmədova “STEAM Yay məktəbi” haqqında məlumat verib. Qeyd olunub ki, “STEAM Yay məktəbi”ndə tədris prosesində innovativ bir qurğu kimi öyrədilən 3D printerlərin işləmə prinsipi, prototiplərin çap olunması və Tinker Cad proqramında isə eskiz layihələr, müxtəlif fiqurlardan modellər hazırlamaqla şagirdlər yaradıcılıq, problem həlletmə kimi bacarıqları daha yaxşı mənimsəyəcək.

Tədbirdə STEAM təlimçisi Fuad Babayevin də çıxışı olub. O qeyd edib ki, “STEAM Yay məktəbi”nin proqramına uyğun olaraq şagirdlərə Humanoid robot, Qdee starter və makeblock mbot təhsil dəstlərinin kodlaşdırılması və funksiyalarının idarə olunması izah olunacaq, proqramlaşdırılmış robotlarla əyləncəli yarışmalar təşkil olunacaq. CNC-də isə müxtəlif materiallar üzərində kəsmə, oyma əməliyyatlarının yerinə yetirilməsi, layihə konstruksiyalarının hazırlanması şagirdlərə çatdırılacaq.

Sonda şagirdlər qdee starter və makeblock mbot robotları ilə hazırlanan futbol və basketbol robot yarışlarını təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan teatrının 139-cu mövsümünün bağlanış mərasimi keçirilib

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında bu münasibətlə keçirilən tədbirin rəsmi hissəsində teatrın direktoru, Xalq artisti Rza Xudiyev çıxış edərək bildirmişdir ki, Azərbaycanda ilk peşəkar teatrın yaranmasından 10 il sonra – 1883-cü il mayın 11-də əsası qoyulan və bu gün 139-cu mövsümünü başa vuran Naxçıvan teatrı həmişə Azərbaycan teatr hərəkatının önündə gedərək tamaşaçıların mənəvi və estetik tərbiyəsində mühüm rol oynamış, insanları işıqlı amallar uğrunda səfərbər edə bilmiş, milli dirçəliş və oyanışın carçısına çevrilmişdir.

Vurğulanmışdır ki, 139-cu teatr mövsümü Naxçıvan teatrı üçün daha əlamətdar olmuş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli Qərarı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” statusu verilmişdir.

Qeyd edilmişdir ki, başa vurduğumuz 139-cu teatr mövsümündə teatr ideya-bədii cəhətdən müxtəlifliyi ilə seçilən bir neçə tamaşanı teatrsevərlərə təqdim etmişdir. İyun ayında isə İlyas Əfəndiyevin “Xurşidbanu Natəvan” əsəri əsasında hazırlanmış eyniadlı tamaşaya ictimai baxış olmuş, həmçinin bu mövsümdə H.Cavidin “Topal Teymur” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın məşqləri aparılmışdır.

Tədbirin bədii hissəsində “Xurşidbanu Natəvan” tamaşası nümayiş olunmuşdur.



Səhnə əsərində əsas rolları gənc aktyorlar Mehri Nəbiyeva, Məmməd Mehdiyev, Səyyad Məmmədov, eləcə də Azərbaycan Respublikasının Əməkdar artistləri Əli Əliyev, Behruz Haxverdiyev, Əbülfəz İmanov, Vidadi Rəcəbli və digərləri ifa edirlər.

Tamaşanın rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova və rejissor assistenti Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəblidir.

Səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.*

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir



Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 32 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Keçirilən reyd-yoxlamalar zamanı yaşayış məntəqələrində əhali arasında fərdi ekoloji-hüquqi maarifləndirici söhbətlər aparılmış, ətraf mühitə təsir hallarının azaldılması, təbii sərvətlərdən səmərəli istifadə və mühafizə tədbirlərinin əhəmiyyəti haqqında geniş məlumat verilmişdir.

May ayında təbii ehtiyatlardan istifadəyə və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə 34 müəssisəyə ekoloji ödəniş tətbiq olunmuşdur. 13 müəssisə tərəfindən təbii ehtiyatlardan istifadə və ətraf mühitə atılan tullantılara, 3 müəssisə tərəfindən isə mineral xammal bazasının bərpasına ayırmalara görə nazirliyin xüsusi hesabına ekoloji ödəniş həyata keçirilmişdir. Həmçinin 50 müəssisə tərəfindən atmosfer havasına atılan tullantılara görə xüsusi icazə sənədinin alınması üçün nazirliyə müraciət edilmiş və ödəniş haqqı nazirliyin xüsusi hesabına ödənilmişdir.

Ay ərzində Naxçıvan şəhəri, Ordubad, Şərur, Babək, Kəngərli və Culfa rayonlarının 29-dan çox yaşayış məntəqəsi ərazisində monitorinqlər keçirilmişdir. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və yaşıllıqların mövcud vəziyyəti öyrənilmişdir. Monitorinqlərdə müəyyən çatışmazlıqlar da qeydə alınmış, mövcud çatışmazlıqların aradan qaldırılması üçün icrası məcburi tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında may ayı ərzində Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 138 analiz aparılmışdır. Aparılan analizlərdə dəmir norma həddi aralığında olmuş, manqan, mis, nikel qurğuşun, sink, alüminium və tritium izotopunun radioaktivlik dozası norma həddini keçməmişdir.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafındakı meyvə bağında dibçəkdə yetişdirilmiş 295 müxtəlif meyvə tingi ilə bərpa aparılmışdır. Naxçıvan-Şərur avtomobil yolunun sağ kənarında yeni salınacaq püstə bağının yeraltı damcılı suvarma sistemi quraşdırılmış, püstə bağında tinglərə aqrotexniki qaydada qulluq göstərilmiş, Əshabi-kəhf ziyarətgahı ətrafında və püstə bağındakı su xətlərində cari təmir işləri davam etdirilmişdir. Əshabi-kəhf ziyarətgahına gedən yolun sol kənarında tut, həmişəyaşıl toxmacarlığı yaradılmış, Qoşadizə, Xətai, Quşçuluq tingçilik sahələrində 3,5 hektar sahə alaq otundan təmizlənmiş, tut, alma toxmacarlığı dərmanlanmış, 100 kiloqram gübrə verilmiş, 5 hektar sahədə suvarma aparılmışdır. Hesabat ayında xüsusi mühafizə olunan təbiət ərazilərində toxumla əkin işləri davam etdirilmiş, Biçənək kəndinə bufer ərazidə yerləşən Xinzirək ərazisində 5, Nehrəm dağının quzey yamaclarında 3 olmaqla, ümumilikdə, 8 hektar sahədə toxumla əkin aparılmış, 128 kiloqram müxtəlif toxumlardan istifadə olunmuşdur.

Ay ərzində xüsusi mühafizə olunan təbiət ərazilərinə dair muzey fondlarının zənginləşdirilməsi məqsədilə Zəngəzur Milli Parkının Ağdərə ərazisindəki muzey fonduna 55 yeni herbari, 11 mürəbbə nümunəsi, 16 müxtəlif ekstrakt, 6 bitki şirəsi, 25 qablaşdırılmış dərman bitkisi, 44 müxtəlif heyvan fotoşəkli, 1 formalin məhluluna salınmış ilan, 5 heyvan müqəvvası yerləşdirilmişdir.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir.

Gənclərlə işin təşkili məqsədilə ötən ay Uzunoba Su Anbarının ətrafında 30 ekologiya könüllüsünün və ərazidə balıq ovu ilə məşğul olan balıqçıların iştirakı ilə təmizlik aksiyası, eyni zamanda 30-dan çox gəncin iştirakı ilə "Təbiət naminə öyrənək!" devizi altında Zəngəzur Milli Parkının Batabat ərazisində təlim və treninq keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda beynəlxalq lisenziyalı məşqçilik kursu keçirilir

*Milli Olimpiya Komitəsi (MOK), Azərbaycan Badminton Federasiyası (ABF) və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Beynəlxalq Olimpiya Həmrəyliyi fondu və Dünya Badminton Federasiyasının (DBF) dəstəyi ilə badminton məşqçiləri üçün "Level 1" məşqçilik kurslarına start verilib.*



Naxçıvan Muxtar Respublikasında İlham Əliyev adına Olimpiya İdman Kompleksində kursun açılış mərasimi təşkil olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov layihənin məqsədi barədə danışıb, müvafiq təlimlər sayəsində güclü badminton məşqçilərinin formalaşacağına və bu sahənin gələcək inkişafına olan inamını ifadə edib.

Milli Olimpiya Komitəsinin layihələr üzrə meneceri Ceyhun Rəhmanov, Azərbaycan Badminton Federasiyasının baş katibi Ramil Hacıyev Naxçıvanda ilk dəfə olaraq "Level 1" kurslarının keçirilməsi üçün yaradılan şəraitə görə minnətdarlıq edərək məşqçilərin badminton biliklərinin təkmilləşdirilməsi və idmançıların gələcək hazırlığı baxımından layihənin böyük rola malik olduğunu vurğulayıblar.

Kursun moderatoru – Dünya Badminton Federasiyasının eksperti, eyni zamanda Azərbaycan milli komandasının baş məşqçisi Murtuza Validarvi diqqətə çatdırıb ki, badmintonun məşqçilik təhsilindəki önəmli səviyyələrdən biri kimi "Level 1" dünyanın istənilən yerində badminton məşqçisi kimi fəaliyyət göstərməyə imkan verən tədris kursudur. Digər mərhələlərdə isə artıq milli komanda məşqçisi, təlimçi və ekspert kimi formalaşmaq mümkündür.

Açılış mərasiminin ardınca kursa start verilib. İlk gün iştirakçılarla tanışlıq olub, onların badminton bilikləri və bu sahə ilə bağlı fikirləri yoxlanılıb, ilkin məlumatlandırıcı seminar keçirilib. İyulun 4-dək eyni məkanda hər gün nəzəri və texniki təlimlər keçiriləcək. Kurslara muxtar respublikanın şəhər və rayonlarından olmaqla məşqçi və fiziki tərbiyə müəllimlərindən 22 nəfər qatılıb.

Sonda imtahanlar keçiriləcək və buna əsasən də uğur qazananlara məşqçilik sertifikatları təqdim olunacaq.

Qeyd edək ki, bu kurs Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə hazırlanan tədbirlər planındakı ilk texniki kursdur.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

* * *

Təşkil edilən 10 günlük beynəlxalq lisenziyalı məşqçilik kursu zamanı təşkilatçıların fikirlərini öyrəndik:

***Ceyhun Rəhmanov (Milli Olimpiya Komitəsinin layihələr üzrə meneceri):*** "Digər kurslardan fərqli olaraq bu dəfə Naxçıvan Muxtar Respublikasına səfər etmişik və kurs burada təşkil olunub. Bu bizim Azərbaycan Badminton Federasiyası ilə birgə keçirdiyimiz üçüncü texniki kursdur. Kursda 22 nəfər iştirak edir və iki hissədən ibarət olacaq. Hər bir hissədə 11 müəllim iştirak edəcək. Sonda onlar beynəlxalq sertifikatla təltif olunacaqlar. Kursda iştirak edən hər bir kəsə Milli Olimpiya Komitəsinin adından təşəkkürümü bildirir, uğurlar arzulayıram. Bununla yanaşı, federasiya Naxçıvanda özünün bir klubunu açmağı planlaşdırır və məşqçilərin də köməkliyi ilə istedadlı uşaqlar seçiləcək, Bakıya dəvət olunacaq və milli komandanın heyətinə cəlb ediləcəklər. Burada məqsəd bölgələrimizdə idmanın kütləviliyini təmin etmək, istedadlı uşaqları üzə çıxarmaqdır".



***Ramil Hacıyev (Azərbaycan Badminton Federasiyasının baş katibi):*** "Azərbaycan Milli Olimpiya Komitəsi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Badminton Federasiyasının təşkilatçılığı və Beynəlxalq Badminton Federasiyasının dəstəyi ilə Naxçıvanda qısamüddətli məşqçilər üçün nəzərdə tutulmuş "Level 1" kursu keçirilir. Bu müddət ərzində məşqçilərə badminton idman növünün texniki və nəzəri bilikləri aşılanacaq. Məşqlərin qısamüddətli olmasına baxmayaraq, ümid edirik, məşqçilər bilik və bacarıqlarını yeniyetmə idmançılara öyrədəcək, muxtar respublikada bu növün geniş yayılmasına öz töhfələrini verəcəklər. İnanıram ki, bu kurs Naxçıvanda badmintonun inkişafı üçün böyük bir təkan olacaq. Belə layihələrimiz muxtar respublikada gələcəkdə də davam etdiriləcək".



***Murtuza Validarvi (Badminton üzrə Azərbaycan millisinin baş məşqçisi):*** "Məşqçilər üçün 10 günlük "Level 1" kursunun Naxçıvanda təşkil olunması bizim üçün sevindirici haldır. Bu, məşqçilər üçün böyük fürsətdir. Kursun nəticəsindən asılı olmayaraq onlar gələcəkdə istedadlı uşaqların üzə çıxarılmasında böyük pay sahibi olacaqlar. Kursda iştirak edən müəllimlərin savadı, gücləri və aktivliyi diqqətdən qaçmır və onlar həvəslə bu işi görürlər. Düşünürəm ki, gələn il "Level 2" kursunu da burada elə bu müəllimlərlə keçirmək olar, çünki onların istedadı buna tam olaraq cavab verir. Məşqçilərin inkişafı üçün Badminton federasiyası əlindən gələn köməkliyi göstərəcək. Kurs zamanı məşqçilərə texnika, taktika və fiziki cəhətlər öyrədilir. Bu kurs dünyada ən əsas kurs hesab edilir. Çünki burada "Level 1"də yüksək nəticə göstərən məşqçilər növbəti il "Level 2"də iştirak edə bilərlər. Ancaq Naxçıvanda məşqçilərin istedadına baxıb deyə bilərəm ki, onlar gələn il "Level 2"də iştirak edə bilərlər. Kursun növbəti günləri meydanda olacaq – məşqçilərə ilk məşq gününün necə keçirilməsi öyrədiləcək. Bununla yanaşı, onlara əl, qol, bədən hərəkətləri, meydanda bir-bir, iki-iki oynanılan oyun qaydaları izah ediləcək".

## Açıq çempionat başa çatıb



İlham Əliyev adına Olimpiya İdman Kompleksində Vətən müharibəsi şəhidi leytenant Nihat Seyidovun əziz xatirəsinə həsr olunmuş uşaq və yeniyetmələr arasında MMA qarışıq döyüş sənətləri üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.

Keçirilən açıq birincilikdə "Naxçıvan", "Kəngərli", "Levent" və "Turan" Döyüş klublarından, ümumilikdə, 80 idmançı iştirak edib. Birinciliyin yekun nəticəsinə əsasən 2008-2009-cu illər təvəllüdlü idmançılar arasında Nurəddin Əliyev (34 kiloqram, "Turan" Döyüş Klubu), Fərid Orucov (38 kiloqram, "Turan" Döyüş Klubu), Səid Abbaslı (42 kiloqram, "Turan" Döyüş Klubu), Oğuz Məmmədli (46 kiloqram, "Turan" Döyüş Klubu), Məhəmməd Məmmədov (50 kiloqram, Kəngərli) və Kənan Əhmədov (55 kiloqram, "Turan" Döyüş Klubu) qalib adını qazanıblar. 2010-2012-ci illər təvəllüdlü idmançılar arasında Onur Əliyev (30 kiloqram, "Turan" Döyüş Klubu), Əli Nəsrullayev (33 kiloqram, Kəngərli), Rəhim Quluzadə (36 kiloqram, "Turan" Döyüş Klubu), Nurəli Əsgərov (40 kiloqram, Kəngərli), Əbülfəz Cəfərov (44 kiloqram, "Turan" Döyüş Klubu), 2013-2014-cü illər təvəllüdlü idmançılar arasında isə Məhəmməd Qasımov (22 kiloqram, "Turan" Döyüş Klubu), Adəm Əsgərov (25 kiloqram, Kəngərli), Eldar Novruzov (28 kiloqram, "Turan" Döyüş Klubu) və Tunar Abdullayev (32 kiloqram, "Turan" Döyüş Klubu) hamıdan güclü olublar.

Qalib idmançılar diplom və medalla təltif ediliblər.

**✍ Ceyhun MƏMMƏDOV**

## Təlim olub

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Sədərək Rayon İcra Hakimiyyəti tərəfindən dekorativ-tətbiqi sənətinin inkişaf etdirilməsi və qadınların bu sahəyə marağının artırılmasına, eyni zamanda onların sosial vəziyyətinin yaxşılaşdırılmasına kömək etmək məqsədilə rayonda yaşayan müvafiq kateqoriyadan olan qadınlar arasında təlim keçirilmişdir. Sağlamlıq imkanları məhdud 14, xüsusi qayğıya ehtiyacı olan 9 ailənin qadın üzvü və Sədərək Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 2 dərnək rəhbəri olmaqla, 25 qadın təlimdə iştirak edib.

Təlimdə əyani vəsaitlərdən istifadə olunub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Yengicə kənd sakini Heydərov Famil Əli oğlunun adına verilmiş JN-696A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Səfərov Nəsimi Ramiz oğlunun adına 10.04.2014-cü ildə verilmiş AE-855653 nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Murad Məmmədhüseyn oğlunun adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş sertifikat itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-11-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 577